# Fakültə haqqında məlumat

Fakültə iqtisadi nəzəriyyə, praktiki idarəetmə və analitik düşüncə sahəsində mütəxəssislərin hazırlanmasını həyata keçirən aparıcı fakültələrdən biridir. Fakültə ölkənin iqtisadi inkişaf strategiyalarına uyğun olaraq rəqabətqabiliyyətli iqtisadçı və menecerlərin yetişdirilməsini əsas məqsəd sayır.

UNEC-in Elmi Şurasının 29.02.2016-cı il tarixli qərarının icrasını təmin etmək məqsədilə Beynəlxalq iqtisadi münasibətlər, İqtisadiyyat və sənaye fakültələrinin bazasında 13.07.2016-cı il tarixli əmrinə əsasən İqtisadiyyat fakültəsi yaradılmışdır. UNEC-in Elmi Şurasının 31 may 2022-ci il tarixli iclasının qərarını təmin etmək məqsdilə İqtisadiyyat fakültəsinin adı 28.06.2022-ci il tarixdən dəyişdirilərək İqtisadiyyat və idarəetmə adlandırılmışdır.

2025-ci ildə fakültəyə “İqtisadiyyat”, “Ekologiya”, “Sosial iş”, “Beynəlxalq münasibətlər”, “Statistika”, “Dövlət və bələdiyyə idarəetməsi” ixtisasları üzrə 713 tələbə qəbul olub. 2025-ci ildə fakültədə ümumi keçid balları artıb. Fakültə üzrə ən yüksək nəticə “İqtisadiyyat” ixtisası üzrə 628.8 bal olub. Hazırda fakültədə 2731 tələbə təhsil alır.

Fakültəyə təhkim edilən kafedralar: “İqtisadiyyat”, “İctimai idarəetmə və sosial innovasiyalar”, “Riyaziyyat və statistika”

1. “İqtisadiyyat” kafedrası.

Universitetdə tədrisin səmərəli idarə edilməsi və təşkili məqsədilə Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Şurasının 31 may 2022-ci il tarixli iclasının qərarına əsasən və UNEC rektorunun 543/3/2022 saylı 19.07.2022-ci il tarixli il əmrinə əsasən "Beynəlxalq iqtisadiyyat", "Nəzəri və praktiki iqtisadiyyat", "İqtisadiyyatın tənzimlənməsi" və "İqtisadi nəzəriyyə" kafedraları 02.09.2022-ci il tarixdən ləğv edilmiş və həmin kafedraların bazasında "İqtisadiyyat" kafedrası yaradılmışdır.

2. “İctimai idarəetmə və sosial innovasiyalar” kafedrası.

Universitetdə tədrisin səmərəli idarə edilməsi və təşkili məqsədilə Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Şurasının 31 may 2022-ci il tarixli iclasının qərarına əsasən və UNEC rektorunun 543/3/2022 saylı 19.07.2022-ci il tarixli il əmrinə əsasən "Ətraf mühitin mühafizəsi və iqtisadiyyatı" və "Sosial inkişaf iqtisadiyyatı və qiymətləndirmə" kafedraları ləğv edilmiş və həmin kafedraların bazasında "İctimai idarəetmə və sosial innovasiyalar" kafedrası yaradılmışdır.

3. “Riyaziyyat və statistika” kafedrası.

“Riyaziyyat” kafedrası 1966-cı ildə yaradılmışdır. Lakin riyaziyyat fənni ötən əsrin 30-cu illərindən “Fizika və riyaziyyat” kafedrasının tərkibində tədris edilmişdir. 2016-cı ildən kafedraya riyaziyyat elmlər doktoru, prof. Natiq Əhmədov rəhbərlik edir.

UNEC-in Elmi Şurasının 09.10.2019-cu tarixli iclasının EŞ-167 № qərarının icrasını təmin etmək məqsədilə 03.02.2020-ci il tarixdən “Riyaziyyat” və “Statistika və ekonometrika” kafedraları birləşdirilərək “Riyaziyyat və statistika” kafedrası yaradılmışdır.